# Bəxtiyar Vahabzadə poeziyasında işlənən antroponimlər

**Səbirə Rövşən qızı Məmmədova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** sebirememmedova50@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. A.H. Hüseynova,
filol.ü.f.d., dos. Q.N. Süleymanova

**Açar sözlər:** antroponim, poeziya, ad, ləqəb, mövzu, dilçilik, tədqiqat
**Ключевые слова:** имя, антропонимы, поэзия, кличка, тема, лингвистика, исследования
**Key words:** name, anthroponomy, poetry, nickname, topic, linguistics, research

Görkəmli şair və ədəbiyyatşünas, ictimai xadim, akademik Bəxtiyar Vahabzadə (1925-2009) Çağdaş Azərbaycan ədəbi-bədii, ictimai-siyasi həyatında tanınmış şəxsiyyətlərdən biridir. Onun geniş və səmərəli bədii yaradıcılıq yolu, elmi, pedaqoji fəaliyyəti, fəal vətəndaşlıq mövqeyi müasir Azərbaycanın ziyalılıq salnaməsinin ən qiymətli, ən yaddaqalan səhifələrindəndir.

Öz humanizmi ilə seçilən Bəxtiyar Vahabzadə öz əsərləri ilə insanları doğruluğa, düzlüyə səsləməyi, müxtəlif mövzulara müraciət edərək insanları düşündürməyi, hər bir qəlbə bir dünya yerləşdirməyi qarşısına məqsəd qoymuş, bir şam olub ətrafı aydınlatmağa çalışmışdır (1,15).

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidməti olan ədib kimi həm də dilimizin təmizliyi uğrunda təəssübkeşliklə mübarizə aparmış, dilimizin müxtəlif problemləri ilə bağlı yazdığı məqalələr, söylədiyi fikir və mülahizələr, qeyd və təkliflərlə dilçiliyin inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

Məlumdur ki, "Onomastika" dilçiliyin mühüm şöbələrindən biri kimi öyrənilir və tədqiq edilir. Elmi araşdırmalar sübut edir ki, onomastik vahidlərin Azərbaycanda öyrənilməsi hələ XX əsrin II yarısından daha da geniş vüsət alıb. Onomastika sahəsi özlüyündə bir çox bölmələri əhatə edir:

1. Antrotoponimika (antroponimlər);
2. Toponomika (toponimlər);
3. Etnonimika (etnonimlər);
4. Hidronimika (hidronimlər);
5. Zoonimika (zoonimlər);
6. Kosmoqonimika (kosmonimlər);
7. Ktematonimika ( ktematonimlər )(3,212 ).

Hər bölmənin öz adı, öz qanunauyğunluqları ...

Onomastik sistemin bədii əsərlər əsasında tədqiqatı müasir dilçiliyin ən aktual problemlərindən biridir (2,6). Hər bir sənətkarın – bu istər yazıçı olsun, istərsə də şair, onların yaradıcılığında dilin özünəxas qanunlarını, onomastik sistemin hansı səviyyədə və ya hansı formatda var olduğunu izləmək mümkündür.

Bəxtiyar Vahabzadənin bədii əsərlərinə nəzər yetirsək görərik ki, onomastik vahidlərin işlənmə xüsusiyyətləri necə də rəngarəngdir. Bəzi misallara nəzər yetirək:

*Heykələ baxıram, fikri dumanlı,*
*Ömür vəfasızdır, əcəl amansız.*
*Məryəmə baxıram, kədəri canlı,*
*İsaya baxıram, cəsədi cansız* (6,195).

*Bosfor körfəzi ...*
*İki qitə*
*Söykənmiş bir - birinə*
*Ortasında bu yolun.*
*Bir tərəfdən Avropadı,*
*Bir tərəfdən Asiya*
*İstanbulun ...* (5,18 )

Misallardan göründüyü kimi bir şeir parçasında bir neçə onomastik vahidlər (Məryəm, İsa – antroponimləri, Bosfor körfəzi, Avropa, Asiya, İstanbul – toponimləri) işlənib. Bu tip vahidlərin bədii əsər nümunələrində işlənməsi bir tərəfdən şeirə məna çalarlığı qatırsa, digər bir tərəfdən isə ona üslubi gözəllik verir.

Antroponimika cəmiyyət yaranandan bir müddət sonra dilin yaranması ilə bağlı olaraq meydana gəlmişdir. Antroponimika insan adlarının əmələ gəlməsinin, inkişafını, təkmilləşməsini və müasir vəziyyətini öyrənir. Əlavə olaraq qeyd etmək gərəkdir ki, antroponimlər təkcə şəxs adlarını deyil, soyad, təxəllüs və ləqəbləri öz daxilində cəmləşdirir.

Ləqəblər insanlara peşəsinə, tutduğu mövqeyinə, vəzifəsinə, zahiri görkəminə görə başqaları tərəfində verilir (4,230). B.Vahabzadə poeziyasında rəngarəng ləqəblərə təsadüf etmək mümkündür. Məsələn:

*Nəcabət saçılır söz – söhbətindən*
*Eşqi – xeyirxahlıq.*
*Qəsdi – məhəbbət*
*Çəkməçi Əlinin tanrısı Vətən,*
*Dostu – sənətkarlıq ,*
*Mehrabı – sənət.* (6,9).

Bədii əsərdə ideyanı daha qabarıq nəzərə çarpdırmaq üçün istifadə olunan üslubi vasitələrdən biri məhz ləqəblərdir. XIX əsrin ikinci yarısında yaranmış ədəbi dilin bədii üslubunda işlədilmiş ləqəblərin leksik – semantik təsnifatını verərkən onları aşağıdakı qruplara bölmək olar:

1. Obrazın zahiri görünüşü və fiziki qüsuru əsasında formalaşan ləqəblər;
2. Obrazın doğulduğu, yaşadığı yeri, bəzən isə müəyyən bir təsadüf nəticəsində getdiyi yeri, mənsub olduğu xalqı ifadə edən ləqəblər;
3. Obrazın sənətini, peşəsini vəzifəsini ifadə edən ləqəblər (4,170).

Ədəbi dilin bədii üslubunda şəxs adlarının özünəməxsus yeri vardır. Bəzən sənətkar əsələrində uydurma obrazlardan istifadə edir. Ancaq Bəxtiyar Vahabzadə yaradıcılığında bu belə deyildir.

*Mən görürəm bir qarış torpaq üçün yer üzündə*
*tökülən qanları,*
*Kim deyir viran qalan bu qəsrə ağlamış o?*

*Yox, qəsrlər yaradan o əsrə ağlamış o!*
*Axsitandan inciyib ucaltmış haqq səsindən* (7,83 ).

*Qurban olum , "qardaş" – deyən,*
*"Heydərbaba" dilinə mən.*
*Ağ saqqaldan elinə sən*
*De, Səttaram, de Babəkəm ,*
*Demə, "təkəm" demə,"təkəm"!* (5,91)

Bəli, gətirdiyimiz nümunələrdən görürük ki, sənətkarın üz tutduğu adlar və yaxud adlar sistemində Azərbaycan ədəbiyyatının tanınmış şəxsiyyətlərinin, tarixin qabaqcıl qəhrəmanları üstünlük təşkil edir. Bu isə Bəxtiyar Vahabzadənin Azərbaycan tarixinə, ədəbiyyatına, mədəniyyətinə dərindən bələd olduğunu, hər tərəfli dünyagörüşlü bir ziyalı olduğunu sübut edir .

Ümumən dediklərimizə kiçik bir xülasə keçərək Bəxtiyar Vahabzadə poeziyasında işlənən antroponimlərin sistemə salsaq, aşağıdakı mənzərə ilə qarşılaşarıq.

- Azərbaycanın görkəmli ziyalılarının, mədəniyyət xadimlərinin, tarixi şəxsiyyətlərinin adları:

*Qeyrət seli axır damarlarından,*
*Soyuqqanlıları o, düşmən sanır.*
*Çəkməçi köşkünün divarlarından*
*Nizami boylanı,*
*Sabir boylanır* (6,50 ) .

*Külək səsi qarışır bu dəm kaman səsinə;*
*Əsrin aman səsinə.*
*Həm külək nalə çəkir, həm də kaman ağlayır;*
*Həm Xaqan,*
*Həm də ki, ötən zaman ağlayır* (6,184 ).

*Bizim bir kimsəyə qərəzimiz yox.*
*Biz iki qardaşıq, bir anamız var.*
*Bir böyük torpağın iki oğluyuq,*
*Orda Şəhriyaram, burda Bəxtiyar* (7,95 ).

- Bədii əsərlərdən götürülmüş obrazların adları;

*Bu kitabdan oxu, öyrən,*
*Sən Leylinin vəfasın:*
*Bizim ulu nənələrin*
*Dözümün,*
*Cəfasını* (5,76).

*Bacar, qızım,*
*Leyli kim, Şirin kimi*
*sevməyi sən!*
*Sərvət üçün,*
*Zinət üçün*

*Başlar kəsib qan tökdürən*
*Şahlar şahı İsgəndəri*
*Haqq önündə diz çökdürən*
*ulu şair*
*Nüşabənin dili ilə* ... (5,77)

Fərhadlar üçün - Şirin Allah,
Leylilər üçün – Məcnun Allah (5,79).

Təkcə bir şeir parçasında ("Cehiz" şeiri) nə qədər ifadələrə rast gəlmək olar .

- Əfsanəvi obrazların adları:

*İki yüz il yaşadı ləzzət içində Loğman*
*Yenə möhlət istədi ölürkən Allahından* (7,121).

- Din xadimlərinin adları:

*Məscid başdan – başa bir xəzinədir,*
*Yatır İman Hüseyn daş – qaş içində.*
*Əgər imam haqsa, bu bəzək nə*
*Bəzəyə möhtacmış, imam da, din də* (7,181).

Misallardan da göründüyü kimi, şeirlərdə istifadə edilən adlar əsərdə obrazlılıq, emosionallıq kimi keyfiyyətləri artırır, fikrin daha ekspressiv ifadəsinə, əsərin ideyasının yüksək poetik dil vasitəsilə oxucuya çatdırmağa geniş imkanlar verir.

**Məqalənin aktuallığı.** Məqalədə türk dünyasının görkəmli sənətkarlarından Bəxtiyar Vahabzadənin yaradıcılığı fonunda antroponimlərin bədii əsərdə işlənmə məqamları aydınlaşdırılır. Sənətkarların dilin qüdrətindən istifadə məharətini öyrənmək baxımından bu məsələ aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Bəxtiyar Vahabzadə yaradıcılığı əsasında antroponimlərin işlənmə məqamları və şeirdəki məna çalarlarının aydınlaşdırılması məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatdan alınan qənaətlərdən müasir Azərbaycan dili, linqvistik təhlil, ədəbi dil tarixi və başqa fənlərin tədrisi zamanı istifadə etmək olar.

## Ədəbiyyat

1. Adilov V. Bəxtiyar Vahabzadə və əxlaqi dəyərlərimiz. Bakı, 2016, 224 s.
2. Hüseynova H. Bədii əsərlərdə onomastik vahidlərin rolu. Bakı, 2017, 190 s.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 2008, 441 s.
4. Mikayılova Ə. Onomastik vahidlərin üslubi imkanları (XIX əsrin ikinci yarısında yaranmış nəsr əsərlərinin materialları əsasında linqvistik tədqiqat). Bakı: "Memar Nəşriyyat – Poliqrafiya" MMC, 2008, 302 s.
5. Vahabzadə Bəxtiyar. Payız düşüncələri. Bakı: Yazıçı, 1981, 366 s.
6. Vahabzadə Bəxtiyar. Vətəndaş. Bakı: Gənclik, 1994, 223 s.
7. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri (2 clddə), I cild. Bakı: Öndər, 2004, 328 s.

**С.Р. Мамедова**

## Антропонимы в поэзии Бахтияра Вахабзаде


## Резюме

Поэзия Бахтияра Вахабзаде обогащена всевозможными антропонимами, которые считаются сборником человеческих имен. В статье Антропонимы в поэзии Бахтияра Вахабзаде были отобраны и вовлечены в анализ.


**S.R. Mammadova**

## Anthroponyms in Bakhtiyar Vahabzade's poetry


## Summary

Bakhtiyar Vahabzadeh's poetry is enriched with all sorts of anthroponyms that are considered to be a compilation of human names. In the article, Anthroponyms in Bakhtiyar Vahabzade's poetry were selected and involved in the analysis.


**Redaksiyaya daxil olub:** 21.11.2019